KREDO
№ 21 (731) 25 may 2013-cü il

# ELMİ SESSİYA: "F.KÖÇƏRLİ VƏ FOLKLOR"



**Mayın 20-də AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun akt zalında Folklor İnstitutunun xətti ilə görkəmli ictimai xadim, maarifçi, ədəbiyyatşünas-alim və yazıçı Firudin bəy Köçərlinin anadan olmasının 150 illik yubileyi ilə əlaqədar "Firudin bəy Köçərli və folklor" mövzusunda elmi sessiya keçirildi.**

Tədbiri giriş nitqi ilə Folklor İnstitutunun direktoru, filologiya elmləri doktoru Muxtar İmanov açıb, ölkə prezidenti İlham Əliyevin F.Köçərlinin anadan olmasının 150 illik yubileyinin keçirilməsi haqqında imzaladığı Sərəncama əsasən bu elmi sessiyanın keçirildiyini diqqətə çatdırdı. Muxtar müəllim məktəbşünaslığımızın formalaşmasında, Azərbaycan ədəbiyyatı tarixinin müasir standartlara uyğun şəkildə yazıya alınmasında, uşaq ədəbiyyatının yaranmasında, ana dilimizin ədəbi dil normalarına oturuşmasında və s. xüsusi xidmətləri olduğundan genişliyilə bəhs açdı. Qeyd etdi ki, F.Köçərli ədəbi prosesə sağlığında ciddi təsir göstərib. Abbas Səhhətin F.Köçərliyə həsr elədiyi şeirin məzmunundan, N.Nərimanovun "Nadanlıq" əsərilə bağlı F.Köçərliyə ünvanladığı yazıların məzmunundan çıxış edən M.Kazımoğlu ədəbin maarifçilik, tənqidçilik sahəsindəki xidmətlərini yada saldı. Güllələnəndən 6 ay sonra isə onun "Azərbaycan ədəbiyyatı tarixi" kitabının işıq üzü görməsi faktını misal çəkən institut direktoru həm də F.Körərlinin tam haqsız yerə güllələndiyini bildirdi. Ədəbin ən böyük xidmətlərindən birinin isə Azərbaycan folklorunun toplanması, nəşri, tədqiqi məsələlərindən ibarət olduğunu qeyd edən natiq sözü məruzəçilərə verdi. İnstitutun əməkdaşları - professor Kamran Əliyev "F.Köçərlinin Azərbaycan ədəbiyyatı tarixində mövqeyi", fəlsəfə doktoru İslam Sadıq "F.Köçərlinin topladığı tapmacaların tipoloji xüsusiyyətləri", böyük elmi işçi Fidan Qasımova "F.Köçərlinin folklorşünaslıq görüşləri", elmi işçi Gülnar Osmanova "Balalara hədiyyə" kitabındakı epik folklor janrlarının çağdaş Azərbaycan nəsrinə təsiri", aspirant Aytac Abbasova "Balalara hədiyyə" kitabındakı "Göyçək Fatma" nağılı və onun variantları" mövzularında məruzələr etdilər.

Məruzələr ətrafında suallar səsləndirildi, çıxışlar dinlənildi.

***Şakir ƏLİFOĞLU***